

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 avqust 2021-ci il №66 (2574) https://mod.gov.az Qiyməti 30 qəpik

## Təcrübə döyüşdə qələbəni sürətləndirən amildir



***Azərbaycan Ordusunun inkişafı və müasir ordu quruculuğu prosesi ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra əsas prioritetlərdən biri oldu. Ordunun inkişaf etdirilməsini, onun dünya standartlarına uyğun formalaşdırılmasını, həmçinin hərbi kadrların dövrün tələbini nəzərə alaraq yetişdirilməsini Əbədiyaşar Komandanımız hər zaman xüsusi vurğulayıb. Görülən işlərin məntiqi nəticəsidir ki, bu gün ümummilli lider Heydər Əliyev kursunun layiqli davamçısı Müzəffər Ali Baş Komandanımız tərəfindən ölkəmizdə aparılan məqsədyönlü tədbirlər sayəsində ordu quruculuğu sahəsində də mühüm nailiyyətlər əldə olunub. 44 günlük Vətən müharibəsində qazanılan Zəfər bu istiqamətin nə qədər düzgün və uzaqgörən seçildiyinin, ordumuzun müasir tələblər əsasında qurulduğunun bariz nümunəsidir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən layihələr ölkəmizin təhlükəsizliyinin qarantı olan ordumuzun hərbi potensialına inanılmaz dərəcədə müsbət təkan verib.***

Bu gün Azərbaycan Ordusunun qarşıya qoyulan istənilən döyüş tapşırığını layiqincə yerinə yetirməyə qadir bir qüvvə kimi formalaşması məhz hərbi qüdrətimizin göstəricisi olan silahlı qüvvələrimizə ayrılan diqqət və qayğının göstəricisidir.

Təcrübə hər bir işin vacib şərtidir. Hərb sahəsi insandan böyük məsuliyyətlə yanaşı, yüksək təcrübə də tələb etdiyindən ordumuzun döyüş qabiliyyətinin və müdafiə məharətinin artırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Yeni hərbi texnikalar, silah-sursatlar arsenalımıza daxil edilməklə yanaşı, sərəncamda olan silah və texnikaların modernləşdirilməsi istiqamətində mühüm addımlar atılır. Məlumdur ki, tədris prosesi, həmçinin müxtəlif miqyaslı təlimlər ordunun döyüş hazırlığının mühüm tərkib hissəsidir. Belə ki, ordumuzun şəxsi heyəti günün nizam qaydalarına uyğun olaraq təşkil olunan dərslər və təsdiq olunmuş plana əsasən, keçirilən müxtəlif miqyaslı təlimlər zamanı qazanılmış nəzəri və praktiki biliklərini uğurla icra edir. Döyüş hazırlığı bölmələrin əməliyyat zamanı düşmənə üstün gəlməsi üçün lazım olan vərdişlərin yaranmasına xidmət edən amildir. "Dəmir yumruq" əməliyyatı zamanı məmləkətimizin "Mədəniyyət beşiyi" olan Şuşamızın azad olunması tapşırığının necə uğurla icra olunduğuna nəzər salsaq yetər. Görərik ki, cəsur oğullarımız ağır texnika və silahlardan istifadə etməyərək yüksək döyüş əhval-ruhiyyəsi ilə necə şanlı Zəfər salnaməsi yazıblar.

"N" hərbi hissəsinə səfərimiz yeni tədris dövrünün başladığı dövrə təsadüf edirdi. Zabit Rüfət Quliyevlə söhbət zamanı qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordumuzun komplektləşdirilməsi sahəsində qarşıya qoyduğu tapşırıqlara əsasən, ölkəmizin hərbi potensialı artmaqda davam edir. "Tədris dövrü ordumuzda lazımi səviyyədə təşkil olunur. Bunun bariz göstəricisidir ki, təsdiq olunmuş döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun birlik, birləşmə, həmçinin müxtəlif qoşun növlərində yeni tədris dövrünün başlaması prosesi bizim hərbi hissədə də uğurla təşkil olunur. Belə ki, təşkil olunan tədbirlərdə Müdafiə nazirinin əmr və tələbləri, tədris dövrünün əsas məqsəd və vəzifələri, həmçinin qarşıya qoyulan tapşırıqların icra qaydaları şəxsi heyətin diqqətinə çatdırılır. Hərbi hissəmizin şəxsi heyəti tədris proqramları, silah və texnikaların effektiv istifadəsi, tədris prosesinin düzgün təşkili üzrə digər məsələlərlə tanış olur.

İndi gedəcəyimiz bölmənin şəxsi heyəti təcrübəli zabitlərin rəhbərliyi altında keçirilən təlimlərdə qarşıya qoyulan tapşırıqları yüksək dəqiqliklə və operativ surətdə icra edir. Artıq bütün dünya bilir ki, Azərbaycanın hərbi potensialı daha da genişlənib və Azərbaycan ordusu regionda mobil və yüksək döyüş hazırlığına malik bir qüvvə kimi formalaşıb. Hərbi hissəmiz yarandığı gündən üzərinə düşən müqəddəs missiyanı böyük fədakarlıqla yerinə yetirməyi bacarıb. Necə ki, 44 günlük Vətən müharibəsi zamanı hərbi hissəmizin bölmələri qarşıya qoyulan vəzifələrin öhdəsindən uğurla gəlməyi bacardı. Tədris prosesinə cəlb olunan bu bölməmizin də şəxsi heyəti döyüşlərdə üzərinə düşən vəzifəni layiqincə icra edən hərbi qulluqçularımızdan təşkil olunub".

(Ardı 7-ci səhifədə)



"Beynəlxalq Ordu Oyunları - 2021"

3-cü səhifədə



"Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!"

5-ci səhifədə



"Mən də tarix yazacam" demişdi...

7-ci səhifədə



"Mənim atam qəhrəmandır" layihəsi çərçivəsində növbəti tədbir keçirilib

8-ci səhifədə

# Müdafiə naziri “Dəniz təməl komando kursu”nun buraxılış mərasimində iştirak edib











Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti "Dəniz təməl komando kursu"nun buraxılış mərasimində iştirak edib.

Hərbi Dəniz Qüvvələrinin hərbi hissəsində keçirilən tədbirdə əvvəlcə ümummilli lider Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə çıxış edən Müdafiə naziri məzunları təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb. Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun bütün hərbi qulluqçuları kimi, dəniz piyadalarının da şücaətini xüsusi vurğulayan nazir hərbçilərimizin qəhrəmanlıqlarının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib.

Türkiyəli peşəkar təlimatçıların cəlb olunduğu kursun yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə Müdafiə naziri türkiyəli zabitlərə və bütün heyətə təşəkkürünü bildirib. Nazir Azərbaycan Ordusunun hərbi qulluqçularının peşəkarlığının daha da yüksəldilməsinə böyük töhfə verən bu kimi kursların davam etdiriləcəyini qeyd edib.

Sonra kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə emblem vurulub və məzunlara sertifikatlar təqdim edilib. Kursda fərqlənən hərbi qulluqçular və təlimatçılar fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Buraxılış mərasimi başa çatdıqdan sonra dəniz piyadalarının istifadəsində olan silah və digər hərbi vasitələr nümayiş etdirilib. Məruzə edilib ki, bu silahlar Vətən müharibəsi zamanı da qarşı tərəfin məhv edilməsində geniş tətbiq olunub.

Sonda hərbi hissənin ərazisindəki təlim poliqonunda sualtı hücum və sualtı müdafiə bölmələrinin təlim epizodları izlənilib.

Xüsusi təyinatlıların nümunəvi çıxışlarını izləyən Müdafiə naziri tapşırıqların daha keyfiyyətli icra edilməsi ilə bağlı komandanlığa müvafiq göstərişlər verib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**21 avqust 2021 15:50**

Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

Avqustun 21-i saat 12:30-dan 13:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini fasilələrlə müxtəlif çaplı silahlardan atəşə tutub.

Cavab atəşilə qarşı tərəf susdurulub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**22 avqust 2021 12:34**

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri tərəfindən avqustun 21-i saat 23:40-dan etibarən avqustun 22-i saat 00:40-dək Ağdam rayonunun Muğanlı, Xocalı rayonunun Sığnax və Xocavənd rayonunun Tağavard yaşayış məntəqələri istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri atıcı silahlardan fasilələrlə atəşə tutulub.

Cavab atəşilə qarşı tərəf susdurulub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**22 avqust 2021 23:57**

Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 22-si saat 20:47-dən 22:50-dək Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Zəylik və Yellicə yaşayış məntəqələri istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini avtomat və pulemyotlardan istifadə etməklə fasilələrlə atəşə tutub.

Cavab atəşilə qarşı tərəf susdurulub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

# Əlahiddə Ümumqoşun Ordunun minaatan bölmələrində döyüş hazırlığı məşğələləri keçirilir



Gənc heyətlərə müxtəlif çaplı minaatanların təyinatı və taktiki-texniki göstəriciləri haqqında ümumi məlumat verilən məşğələlərdə minaatan heyətlərinin ixtisas hazırlığı artırılır və döyüş vərdişləri təkmilləşdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, məşğələlərdə bölmələrin atəş mövqelərini və komanda müşahidə məntəqələrini tutması, minaatan qurğularının döyüşə və səfərə gətirilməsi, tuşlanması, doldurulması və döyüş atışının icra olunması məşq etdirilir.



Şəxsi heyətin funksional vəzifələrinin icrasına və ixtisas hazırlığı üzrə praktiki vərdişlərinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilən məşğələlərdə bölmələr döyüş tətbiqinə hazırlanaraq planlı və plandankənar hədəflərə döyüş atışları icra edirlər.

Minaatan bölmələrində döyüş hazırlığı məşğələləri plana uyğun davam edir.

# “Beynəlxalq Ordu Oyunları - 2021”



*"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində Rusiya Federasiyasının Moskva şəhərində "Mədəniyyət Ordusu" yaradıcılıq müsabiqəsi keçirilir. Müsabiqədə Azərbaycanı Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblının kollektivi təmsil edir.*

Yaradıcılıq müsabiqəsində komandamız "Vokal ustalığı", "Xoreoqrafik bacarıq", "İnstrumental janr" və "Sərgi fəaliyyəti" mərhələləri üzrə mübarizə aparacaq.

Müsabiqə çərçivəsində hərbçilərimizin ifasında milli hərbi marşlar, o cümlədən Azərbaycan xalq çalğı alətlərinin ifası və Azərbaycan milli rəqsləri təqdim olunacaq.

Müsabiqə avqustun 22-dən sentyabrın 5-nə kimi davam edəcək.

Qeyd edək ki, yarışlarda 20-dək ölkədən beş yüzdən artıq musiqiçi, vokalist və rəqqas iştirak edəcək.



* * *

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsində artilleriyaçılarımızın hazırlıqları davam edir.

Püşkatma mərasimində iştirak edən artilleriyaçılarımız əvvəlcə təhlükəsizlik qaydaları, müsabiqənin xüsusiyyətləri, mərhələlər üzrə şərtlər, atəş və döyüş hazırlığı tapşırıqlarının yerinə yetirilmə hədləri, eləcə də poliqonun maddi-texniki bazası ilə tanış olub.

Müsabiqədə istifadə ediləcək silah və döyüş texnikasına baxış keçirildikdən sonra artilleriyaçılarımız müsabiqənin mərhələlərinin keçilməsi üsullarını məşq etməyə başlayıb.

Hazırlıq prosesi yekunlaşdıqdan sonra komandamız minaatanlardan sınaq atışları yerinə yetirib.

Qeyd edək ki, sentyabrın 2-dək davam edəcək müsabiqədə 10 ölkənin artilleriyaçıları yarışacaqlar.

* * *

İran İslam Respublikası ordusunun Hərbi Dəniz Qüvvələrinin (HDQ) şimal donanmasının komandanı kontr-admiral Əbdülvahab Tahirinin və Azərbaycan HDQ komandanının müavini birinci dərəcəli kapitan Həbib Xəlilovun rəhbərlik etdikləri nümayəndə heyətləri arasında görüş keçirilib.

Görüşdə "Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində "Dəniz Kuboku" müsabiqəsinin təşkili və keçirilməsinə dair fikir mübadiləsi aparılıb.

Kontr-admiral Ə.Tahiri azərbaycanlı nümayəndə heyətini İranda görməkdən məmnunluğunu ifadə edib, ölkəmizə bu yarışda müvəffəqiyyətlər arzulayıb.

Birinci dərəcəli kapitan H.Xəlilov "Dəniz Kuboku" müsabiqəsinin bu il İran İslam Respublikasında təşkil olunmasına görə iranlı həmkarına təşəkkürünü bildirib. Yarışın iştirakçı ölkələr arasında dostluq münasibətlərinin daha da artırılması məqsədilə keçirildiyini vurğulayıb.

* * *

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində İran İslam Respublikasının Ənzəli şəhərində keçirilən "Dəniz kuboku" müsabiqəsinin püşkatma mərasimi keçirilib.

Püşkatmanın nəticəsinə əsasən, yarışacaq komandaların müsabiqənin mərhələ və epizodlarının icrası üzrə sıralanması müəyyənləşdirilib.

Avqustun 25-dən başlayacaq müsabiqədə hərbi dənizçilər "Artilleriya atışlarının yerinə yetirilməsi", "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı" və "Dəniz hazırlığı" üzrə mərhələlərdə güclərini sınayacaqlar.

Qeyd edək ki, Azərbaycan müsabiqədə HDQ-nin G-122 və G-124 gözətçi gəmiləri ilə təmsil olunur.



* * *

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin başlaması ilə bağlı iştirakçılar üçün brifinq keçirilib.



Brifinqdə iştirakçılara təhlükəsizlik qaydaları çatdırılıb, yarışların xüsusiyyətləri və keçirilmə şərtləri izah olunub, ərazinin maketi üzərində atəş və döyüş hazırlığı tapşırıqlarının yerinə yetirilmə hədləri göstərilib, eləcə də poliqonun infrastrukturu və maddi-texniki bazası ilə bağlı məlumat verilib.

Qeyd edək ki, avqustun 25-dən başlayacaq müsabiqədə Azərbaycan Ordusu 22 hərbi qulluqçu ilə təmsil olunur.

Artilleriyaçılarımızın müsabiqəyə hazırlığı davam edir.

* * *

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində keçirilən "Mədəniyyət Ordusu" yaradıcılıq müsabiqəsində Azərbaycanı təmsil edən Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının solistləri ilk çıxışlarını təqdim edib.

Müsabiqənin birinci günü "Vokal ustalığı" və "İnstrumental janr" mərhələləri üzrə yekunlaşıb.

Hakimlər tərəfindən qiymətləndirmə zamanı iştirakçıların peşəkarlığı və ifa qabiliyyəti nəzərə alınıb.

Müsabiqədə solistlərimizin ifasında Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səsləndirilib.

Azərbaycan xalq çalğı alətlərində hərbçilərimizin çıxışı hakimlərin və zala toplaşanların böyük marağına səbəb olub.

* * *

"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində İran İslam Respublikasının Ənzəli şəhərində keçirilən "Dəniz kuboku" müsabiqəsində iştirak edən hakimlər komissiyasının və komandaların üzvləri tapşırıqların yerinə yetiriləcəyi ərazi və təlim-məşq qurğusuna baxış keçiriblər.

Hakimlər komissiyası tərəfindən komandaların üzvlərinə müsabiqənin keçirilmə qaydaları izah olunub, mərhələlər üzrə şərtlər və təhlükəsizlik qaydaları çatdırılıb, digər təşkilati məsələlərlə bağlı ilkin təlimat keçirilib.



Dənizdə gəmilərin qarşılıqlı fəaliyyəti və rabitə əlaqəsi müəyyənləşdirilib, o cümlədən müsabiqənin çalışmaları üzrə naviqasiya və taktiki hesablamalar da aparılıb.

Qeyd edək ki, müsabiqə avqustun 25-dən başlayacaq və komandalar 3 mərhələ üzrə güclərini sınayacaqlar.

* * *

Hərbçilərimizin "Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinə hazırlığı davam edir.

Növbəti gündə heyətin atəş mövqelərini tutması və komanda müşahidə məntəqələrinin açılması, minaatan qurğularının döyüşə və səfərə vəziyyətinə gətirilməsi, tuşlanması, doldurulması və döyüş atışının icra olunması tapşırıqları məşq olunub.

Artilleriyaçılarımızın çətin keçilən ərazidə döyüş texnikasının idarə edilməsi və döyüş şəraitində tətbiqi üzrə vərdişləri təkmilləşdirilib.

Dünyanın 10 ölkəsindən olan artilleriyaçıların iştirak etdiyi müsabiqədə silah və döyüş texnikası ilə mərhələlər üzrə müxtəlif tapşırıqlar yerinə yetiriləcək.

Moskva şəhərində səfərdə olan Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov avqustun 23-də "Beynəlxalq Ordu Oyunları-2021" yarışlarının təntənəli açılış mərasimində iştirak edib.

Nazir müavini, həmçinin Alabino hərbi poliqonunda keçirilən "Tank biatlonu" müsabiqəsində iştirak edən hərbi qulluqçularla görüşüb və yarışlarda onlara uğurlar arzulayıb.

"Beynəlxalq Ordu Oyunları - 2021" çərçivəsində yaradılan "Dostluq Evi"ndə təşkil olunan sərginin Azərbaycana aid bölməsində milli-mənəvi dəyərləri özündə əks etdirən və tarixi köklərə bağlanan müxtəlif eksponatlar və ədəbiyyat ilə tanış olan nazir müavini yaradıcı kollektivə uğurlar diləyib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Şəhid Vüqarın doğum günündə Türk zabiti Həsəni Bəşir və kəndin ilk şəhidi Fariz də xatırlanıb



*Azərbaycan Ordusunun igid zabitlərindən olan Vüqar Aydın oğlu Nəcəfov 10 avqust 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Dırnıs kəndində anadan olub. V.Nəcəfov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alaraq zabitlik peşəsinə yiyələnib. Cəbhə bölgəsində yerləşən hərbi hissədə motoatıcı və atəş dəstək taqımının komandiri kimi xidməti vəzifələrinin öhdəsindən şərəflə gəlib, "kapitan" hərbi rütbəsinədək yüksəlib. Vətən müharibəsində Füzuli, Xocavənd və Cəbrayıl rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak edib. 2020-ci il oktyabrın 2-də şəhidlik məqamına yüksəlib.*

Bu, Ordubad rayonunun ucqar Dırnıs kəndindən başlayıb müqəddəs ziyarətgahları ilə məşhur olan Cəbrayılda şəhidliklə sonuclanan bir Azərbaycan gəncinin, Azərbaycan zabitinin qısa və şərəfli ömür yoludur.

Müdafiə Nazirliyinin rəsmiləri, ailə üzvləri, yaxınları, döyüşçü dostları, Sabunçu və Ordubad rayonlarının bir qrup sakini avqustun 10-da İkinci Şəhidlər xiyabanına gələrək şəhid zabit Vüqar Nəcəfovun məzarını ziyarət ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, şəhidin doğum günü münasibətilə keçirilən mərasimdə respublikamızın ərazi bütövlüyünün qorunması və bərpası uğrunda həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Ziyarətçilər qarşısında çıxış edən polkovnik Abdulla Qurbani bütün bölgələrimizdən pərvazlanan igidlər kimi ordubadlı gənclərin də Vətən uğrunda, müstəqilliyimiz uğrunda mübarizədə, döyüşlərdə həmişə öncüllər sırasında olduğunu bildirib. Vaxtilə İkinci Dünya savaşında dövrün ən yüksək "Sovet İttifaqı Qəhrəmanı" fəxri adına layiq görülən general-mayor Nəcəfqulu Rəfiyevin, Buhenvald ölüm düşərgəsində gizli antifaşist təşkilatının rəhbərlərindən biri olmuş əfsanəvi azərbaycanlı qəhrəman Əkbər Ağayevin və faşizm üzərində qələbənin qazanılmasında müstəsna xidmətləri olan dünya şöhrətli alimimiz akademik Yusif Məmmədəliyevin də Ordubadın yetirdiyi görkəmli şəxsiyyətlərdən olduğunu qeyd edib.



Dırnıs kəndinin tarixinə və sakinlərinin əməksevərliyinə, vətənpərvərliyinə yaxından bələd olan A.Qurbani nəzərə çatdırıb ki, keçən əsrin əvvəllərində öz bədnam niyyətlərini Türkiyədə həyata keçirə bilməyən qaniçən Andranikin qiyamçı terror dəstələri tez-tez Naxçıvanın da kəndlərinə hücum edir, yaşayış məntəqələrinə od vuraraq yandırır, qadınlara, uşaqlara, qocalara aman vermədən vəhşicəsinə qətlə yetirir, minlərlə günahsız insanın qanını axıdırdılar. Quduzlaşmış erməni cəlladları ağlasığmaz amansızlıqlarla südəmər körpələri süngülərə, şanalara sancır, ahıl insanların kürəklərinə yanar samovarlar bağlayır, adamları diri-diri quyulara dolduraraq öldürür, məscidlərə toplayaraq onlara od vururdular.

Carbas dağında özlərinə mövqe seçmiş daşnak tör-töküntüləri Dırnıs kəndinin üzərinə od ələyir və kəndi daim təhlükə altında saxlayırdı. Belə bir müdhiş zamanda Türk qardaşlarımız harayımıza gələrək kəndin igid oğulları ilə birlikdə düşmənin layiqli cavabını veriblər. Türk zabiti Həsəni Bəşir və Mərcan çavuş haqqında əfsanəyə çevrilən xatirələr bu gün də ordubadlıların qan yaddaşından silinməyib.

Mərasimdə vurğulanıb ki, Türk qardaşımız Həsəni Bəşir Vüqar yaşda olanda Ağamət dərəsində düşmənlər tərəfindən qətlə yetirilsə də, bütün kənd əhalisi köməyə gələn igid məhmətciklərlə çiyin-çiyinə vərərək erməni quldurlarının bu dağlardan, dərələrdən tamamilə təmizlənməsinə nail olublar. Həsəni Bəşirin nəşi kəndə gətirilərək böyük izdihamın iştirakı ilə Sənək dağının ətəyində dəfn edilib.

Sovet ideologiyasının sərt rejiminin tüğyan etdiyi zamanlarda bütün qadağalara baxmayaraq, igid türk əsgərinin məzarı yerli əhali tərəfindən mühafizə edilib, üzərinə ağ mərmərdən baş daşı qoyularaq elin ziyarətgahına çevrilib.

Əsrin sonlarında, 90-cı illərdə Ermənistan-Azərbaycan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikası istiqamətlərində erməni silahlı birləşmələri yenidən baş qaldıranda, təxribatlar törədəndə, ərazilərimizə hücum cəhdləri ediləndə kəndin cavanları bu məzarın önündə and içərək Vətənin müdafiəsinə qalxıb, ata-babalarımızın qəhrəmanlıq ənənələrini döyüşlərdə uğurla davam etdiriblər. Onlardan biri də 1992-ci ildə Sədərəyin müdafiəsində şəxsi igidlik və şücaət nümunələri göstərərək şəhidlik zirvəsinə ucalan Fariz Sabir oğludur. Kəndin ilk şəhidi ağsaqqalların məsləhəti ilə Sənək dağında, qəhrəman Türk əsgərinin məzarı yanaşı dəfn edilib. İndi bu zirvədə 10-dan çox şəhid məzarı var.

Şəhid V.Nəcəfovun müəllimi Rayət İmaməliyev öz sevimli şagirdi haqqında xatirələrini bölüşüb: "Vətənpərvər, çalışqan şagird idi. Peşə seçimini edəndə heç də təəccüblənmədim. Axı onun atası da kəndimizdə mahir döyüşçü kimi ad çıxarıb. Bir də ki, bu gün bütün ixtisaslarla yanaşı, peşəkar hərbçilərə də böyük ehtiyacımız var. Biz Vüqarı Həsəni Bəşirin və şəhidlərimizin uyuduğu müqəddəs məkandan Bakıya yola saldıq. Böyüklər xeyir-dua verdilər. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul oldu. Valideynləri onu diqqətdən kənarda qoymayaraq Bakı şəhərinə köçdülər. Daim onun təhsili ilə maraqlanırdım. İndi gün eşitdim ki, artıq hərbi məktəbi və Silahlı Qüvvələrin



Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu müvəffəqiyyətlə bitirib, Xocavənd rayonu istiqamətində ön səngərdədir.

Hər dəfə kəndimizə gələndə ilk üz tutduğu yer yenə də Sənək dağı olardı. Böyük arzularla yaşasa da, arzusuna çatmaq ona qismət olmadı. Ancaq təsəllimiz ondan ibarətdir ki, qanı yerdə qalmadı, intiqamı döyüş meydanında alındı, tarixi ədalət bərpa edildi və torpaqlarımızın işğaldan azad edilməsinə nail olduq".

Rayət müəllim şəhidin valideynlərinə bir daha səbir-dözüm arzulayıb və Vüqarı yola salarkən dediyi türk şairi Mehmet Emin Yurdakulun məşhur şeirindən parçalar söyləyib:

*Git evladım, yıllarca ben*
*oğulsuz kalayım,*
*Şu yaralı bağrıma kara*
*taşlar çalayım.*
*Hadi yavrum, hadi git,*
*ya gazi ol, ya şehit!..*

Şəhidin atası Aydın Nəcəfov Naxçıvanın igid müdafiəçilərindəndir. Ordubadın ilk könüllü özünümüdafiə dəstəsinin tərkibində Soyuqdağda, Sədərəkdə, Kərməçataqda, Şadada, Ağbulaq dağlarında, Qara Quzeydə böyük fədakarlıqlar göstərib. 1992-ci ilin sentyabrında erməni quldurları pusqu quraraq çoban Əşrəf Abbasovla Xəlil Xəlilovu əsir götürüblər. Onların nə öldüsündən, nə də qaldısından xəbər yox idi. O vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin sayəsində dağlarda axtarışların aparılması məqsədilə helikopter göndərilib və bir neçə gündən sonra ermənilər tərəfindən işgəncə ilə öldürülən çobanların nəşi tapılaraq Ordubad şəhərinə gətirilib.

Malik İbrahim qəbiristanlığında keçirilən dəfn mərasimində çıxış edən ulu öndərimiz Heydər Əliyev şəhidlərin ailələrinə başsağlığı verib və xalqı birliyə, düşmənə qarşı mübarizədə ayıq-sayıq, barışmaz olmağa çağırıb. O gün Aydın Nəcəfov da Ordubadın bir qrup dəliqanlısı ilə birlikdə çobanların intiqamını tezliklə alacaqlarına and içərək döyüşlərə yollanıb və elə həmin günün axşamı düşmənə dağıdıcı və sarsıdıcı zərbələr vurublar.

Aydın Nəcəfov çıxış edərək deyib: "Müharibə bizim taleyimizə yazılıb. Mən də gəncliyimi səngərlərdə keçirdim, oğlum da. Ancaq fəxr edirəm ki, biz istəyimizə nail olmasaq da, oğlum və onun sıralarında zabit kimi xidmət etdiyi Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında qısa bir zamanda xalqımıza böyük Zəfərin sevincini yaşatdı. Halal olsun oğlum, sən həm Həsəni Bəşirin, həm də Farizlərin qanını yerdə qoymadın. Atanın çörəyi, ananın südü halalın olsun! Sən mənim adımı oğluna vermişdin. Əmin ol ki, oğlum, balaca Aydın da babasının, atasının yolunu davam etdirəcək. Nə qədər canımda can var, bu arzuma çatmaq üçün çalışacağam".

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, kapitan Vüqar Nəcəfov nümunəvi və peşəkar zabit kimi xidmətdə həmişə fərqlənib, komandanlığın etimadını doğruldub, şəxsi heyət içərisində sayılıb-seçilən zabitlərdən biri olub. Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley medalı, ölümündən sonra isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Sonra şəhidin ailəsinə Müdafiə Nazirliyinin nəşri olan A.Qurbaninin "Vətən müharibəsi şəhidləri" adlı xatirə kitabının nüsxəsi təqdim edilib.

Türk qanını coşduran "Mehtər" marşının sədaları altında tədbir başa çatıb.

Tarixi həqiqətlər

# "Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!"

***Azərbaycan xalqı, Azərbaycan dövləti 30 ilə yaxın Ermənistan silahlı birləşmələri tərəfindən işğal altında saxlanılan torpaqlarını azad etməklə haqq savaşında Zəfər çaldı. İşğalçı erməni faşistləri torpaqlarımızdan qovuldu. Düşmənin növbəti təxribatlarına qarşı başlanan Qurtuluş savaşı Müzəffər Ali Baş Komandanın sərkərdəliyi, müdrik, uzaqgörən siyasəti, yüksək diplomatik bacarığı, qətiyyətli addımları və şanlı ordumuzun gücü sayəsində Böyük Qələbə ilə başa çatdı. Xalqımız qalibiyyət bayrağını başı üzərində dalğalandırdı. Azərbaycanımızın ərazi bütövlüyü təmin olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin "SNN Türk" televiziya kanalına müsahibəsi zamanı dediyi bir fikri xatırlatmaq yerinə düşər: "Azərbaycan Qurtuluş savaşına başlayaraq öz tarixi torpaqlarını işğalçılardan azad etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları bizim torpaqlardan qovdu və öz ərazi bütövlüyünü, torpaq bütövlüyünü bərpa etdi."***




Vətən müharibəsində qazanılan tarixi qələbədən sonra Zəngəzur dəhlizinin də açılması zərurəti yarandı. Bildiyimiz kimi, hazırda bu istiqamətdə genişmiqyaslı işlər aparılır və tezliklə tarixi torpaqlarımız olan Zəngəzurda regionun iqtisadi mənzərəsinin dəyişəcəyinə şahidlik edəcəyik. Belə ki, iyulun 7-də ölkə rəhbərinin imzaladığı Fərman əsasında Qarabağ iqtisadi zonası ilə yanaşı, Şərqi Zəngəzur iqtisadi zonası da yaradıldı.

Avqustun 17-də Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında səfərdə olarkən dövlət başçısı çıxışında Şərqi Zəngəzurla bağlı bəzi məqamları xatırladaraq dedi: "Bildiyiniz kimi, mənim Sərəncamımla 14 iqtisadi rayon yaradıldı. Onların arasında iki iqtisadi rayonunun yaradılması diqqət çəkdi - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı. Hesab edirəm ki, bu da çox düzgün addımdır. Bu, həm tarixə əsaslanır, eyni zamanda gələcəyə əsaslanır. Çünki həm Qarabağ, həm də Zəngəzur bizim tarixi dədə-baba torpağımızdır. Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonlar birləşdi. Şərqi Zəngəzur iqtisadi rayonunda Şərqi Zəngəzura aid olan rayonlar birləşdi. Qərbi Zəngəzur isə hazırda Ermənistanın nəzarəti altındadır. Ancaq Zəngəzur dəhlizinin çəkilişi nəticəsində əlbəttə ki, biz bu dəhlizdən istifadə edib öz vətəndaşlarımızı dədə-baba torpaqlarımıza qaytaracağıq. Belə planlar var və bu da təbiidir. Çünki bizim vətəndaşlar indiki Ermənistan ərazisindən, təkcə Zəngəzur mahalından yox, Göyçə mahalından da, - bura ilə həmsərhəddir, - zorla qovulmuşlar və onların tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar. Biz bunu sonrakı mərhələyə saxlayırıq."

Kəlbəcər və Laçın rayonlarına səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti geniş çıxışında, eyni zamanda, xüsusi olaraq bəyan etdi: "Şərqi Zəngəzurun gələcək inkişafı ilə bağlı bütün işlər plan üzrə gedəcək və biz istəyimizə nail olacağıq. Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!

Ümumiyyətlə "Zəngəzur" deyəndə, tarixi-coğrafi baxımdan nə anlaşılır, məxəzlərdə, mənbələrdə daşlaşmış tarixi faktlar, tarixi həqiqətlər hansılardır, bu ərazilər hansı torpaqları əhatə edib və necə oldu ki, onun hüdudları dəyişdi? Qərbi və Şərqi Zəngəzur anlayışlarının yaranmasının tarixi kökləri nəyə bağlıdır?

Suallara aydınlıq gətirməzdən öncə bir tarixi məqamı da xatırlayaq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2011-ci il 5 iyul tarixində keçirilən Dünya azərbaycanlılarının III qurultayındakı möhtəşəm nitqində dediyi fikirlər Qarabağla, Zəngəzurla bağlı tarixi həqiqəti dolğun və düzgün əks etdirir, tarixi olduğu kimi dünya azərbaycanlılarına çatdırırdı: "Tarix tarixdir. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni, Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi."

Bəli, Zəngəzur mahalı qədim Azərbaycan torpaqlarını özündə birləşdirən bir ərazi, coğrafi məkan olub. Eyni zamanda, Zəngəzur elləri ən qədim dövrlərdən Azərbaycan ərazilərində yaranan dövlətlərin tərkibində mövcud olub. Adlar yerin, torpağın danışan dilidir, əcdadlarımızın ən etibarlı, uzunömürlü ünvanlarıdır. Zəngəzur ərazisindəki türk mənşəli toponimik adların çoxluğu da fikirlərimizi tam təsdiqləyir. Bu istiqamətdə tədqiqatların dərinləşdirən bir çox alimlərin fikrincə, toponimin adındakı "zəngi" leksik vahidi də türk tayfa adıdır. Türkdilli respublikalarda və o cümlədən, ölkəmizin çoxlu yer adlarında bu oğuz-türk tayfasının izləri yaşamaqdadır. Zəngiçay, Zəngitəpə, Zəngərik, Zəngişamlı, Zəngənə, Zəngilan, Zəngəran, Zəngişalı, Zəngidərə çayı, Zəngibasar, Zəngilər, Zəncan, Zəndilli adlarını çəkmək olar.

Mahmud Kaşğarinin, Fəzlullah Rəşidəddinin, Əbdülqazinin, Abbasqulu ağa Bakıxanovun əsərlərində, çoxlu sayda yazılı mənbələrdə oğuz-türk tayfasının biri olan "zəngi" tayfasının adı çəkilir. Zəngi tayfaları Azərbaycanda Atabəylər və Səfəvi dövlətlərinin, hakimiyyətlərinin əsas sütunlarından biri olub.

Zəngəzurun coğrafi adındakı ikinci leksem qədim türk dillərindən bu günə qədər dilimizdə işlənən "sır" sözü fonetik dəyişikliyə uğrayaraq, s-z-yə çevrilib. Yəni dağlıq, daşlıq, sırsıralı, qayalıq yer, təbii hasar, qala, bürc anlamını verir. Bu iki sözün birləşməsi ərazinin relyefini doğru, düzgün səciyyələndirir: zəngilərin yaşadığı dağlıq yer. Zəngəzur ərazisindəki adların əksər çoxluğunda sır-sur-zur-zor sanki daşlaşıb qalıb. "Zor" sözü Qafqaz və Anadolu türklərinin dilində əsrlərin daş yaddaşından keçərək bu gün də çox yaxşı, böyük, gözəl mənasında da geniş işlənir: güclü, qüvvətli, zor yer, zor adam.

Bütün türk dünyasının yazılı sənət abidəsi "Kitabi-Dədə Qorqud" dastanının X boyunda yazılır: "Oğuz igidi Usun oğlu Əkrək dədə-baba, el yolu, yeni Gorus-Əngələyüz-Dərəşam yolu ilə atını üç gün üç gecə yortaraq Əlincə qalaya çatdı..." Zəngəzurun mərkəzi sayılan Gorus "us", "uş" tayfasının yaşayış yeri, yurdu, əcdadlarının uyuduğu məkan olub. Qafqaz Albaniyasının tərkibində mövcud olmuş Sünik knyazlığı da əsasən Zəngəzurun Sisian və Gorus bölgələrini əhatə edirdi. Zəngəzurun 20 yurd yeri, dağ-dərə, el-oba adı "Kitabi-Dədə Qorqud"da çəkilən adlarla eynidir. Sisianın adı ilkin yazılı mənbələrdə "Sisakan"dır. Sisakan toponimində həm də türk-oğuz mənşəli arxaik söz daşlaşıb qalıb. "Kan" hündür dağ silsiləsi, dağ yeri anlamını verməklə, Sisakan sisak nəslinin yaşadığı dağlıq yer mənasında işlədilir. Bütün bunlar islamiyyətdən əvvəlki alban mənşəli yer adlarıdır. "Sünik" toponimi sak türkdilli tayfa adı ilə bağlıdır.

Zəngəzurun digər bölgəsi Laçın, Mığrı-Meğri adlarında da türk tayfalarının izi qalıb. Meğri rayonunun Nüvədi kəndindəki Qarqar yazıları öz qədimliyi, mükəmməlliyi, ümumtürk tarixi üçün əhəmiyyəti ilə "Orxon-Yenisey" abidələrindən geridə qalmırdı. Bərgüşad çayı və ərazi adında atəşpərəstlərin inandığı Bərqu peyğəmbərin adı qalıb. Zəngəzur mahalına daxil olan ən böyük şəhər Qafan - qaf etnosunun Qacaran-qacar tayfalarının yurd yerləri olmuşdur. "An" əski türkcəmizdə cəmlik, çoxluq bildirir.

Qədim və erkən orta əsrlərdə türk etnoslarının məskən qurduğu və Azərbaycan ərazisində yerləşən çoxlu sayda türk dövlətləri Sünik-Zəngəzuru da əhatə etmişdi. Bu dövlətlər mövcud olanda ermənilərin bu ərazilərdə heç bir izi olmayıb.

Zəngəzur Cavidan, Babək dövründə xürrəmilər hərəkatının, ərəblərə qarşı aparılan müharibələrin əsas mərkəzi, 30 ildən artıq sürən qanlı döyüşlərin son məkanı olub. Həm də ona görə ki, atəşpərəstliyin ən məşhur məbədgahları bu yerlərdə idi və neçə-neçə abidədə izləri yaşamaqda davam edirdi. Ərəblər məhz Arazı keçərək Naxçıvan-Biçənək-Gorus-Laçın-Bərdə istiqaməti ilə hərəkət edib Alban, Arran adlanan Şimali Azərbaycanı zəbt etmişdilər.

Azərbaycan tarixindən o da bəllidir ki, 1065-ci ildə Səlcuq-türk imperiyasının şanlı hökmdarı Alp Arslanın başçılığı ilə 150 il davam edən səlcuqlu hökmranlığı Zəngəzur ərazisində türk-islam nüfuzunu daha da genişləndirdi. 1236-cı ildə isə Zəngəzur monqol-tatarların işğalına məruz qaldı. Bu dövrlərə aid olan yazılı məxəzlərdə də Zəngəzurdakı türk-oğuz mənşəli yer, yurd adlarının adı çəkilir.

Bütün bu araşdırmalar sübut edir ki, Zəngəzur mahalı Azərbaycan torpağının ən qədim yurd yeri və əcdadlarımızın yaşayış məskənlərindən biri olub. Ölkə Prezidentinin bəyan etdiyi kimi "...Zəngəzur mahalı bizim tarixi ərazimizdir..."

Lakin tarixin sərt, amansız dönəmlərində bu torpaqlarımız da zaman-zaman parçalanmağa və bölünməyə məcbur edilib. Zəngəzurla bağlı digər tarixi faktlara da nəzər yetirək. Çar Rusiyası dövründə həmin tarixi Azərbaycan ərazilərində 1867-ci ildə Zəngəzur qəzası yaradılıb. Qəza Yelizavetpol (indiki Gəncə şəhəri) quberniyasının tərkibinə daxil olub. Zəngəzur qəzasına indiki Qafan, Gorus, Mehri, Qarakilsə (Sisian), Laçın, Qubadlı və Zəngilan rayonları daxil idi. Gorus qəsəbəsi isə mərkəzi hissə adlanıb. Ermənilərin azərbaycanlılara qarşı 1905-1907 və 1914-1920-ci illərdə törətdiyi soyqırımları nəticəsində Zəngəzur mahalında təxminən yarım milyon yerli əhali öldürülüb. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silindi. 4472 qadın və uşaq erməni silahlı dəstələri tərəfindən vəhşiliklə qətlə yetirildi. Mudros müqaviləsi əsasında Osmanlı qoşunları Azərbaycanı tərk etdikdən sonra ingilislər Azərbaycan Xalq Cümhuriyyəti tərkibində yaradılan Qarabağ general-qubernatorluğunu tanıdılar. Şuşa, Cavanşir, Cəbrayıl qəzaları ilə birlikdə Zəngəzur qəzası da Qarabağ general-qubernatorluğuna daxil idi. Xalq Cümhuriyyəti hökuməti ölkənin ərazi bütövlüyünü təmin etmək məqsədilə Zəngəzura qoşun hissələrinin göndərilməsini qərara aldı. Xankəndidən Zəngəzura doğru hərəkət etməyə başlayan milli ordu bölmələri strateji əhəmiyyətli ərazidən erməni silahlı qüvvələrinin təmizlənməsini uğurla təşkil etsələr də, onu əldə saxlamaq mümkün olmadı...

Azərbaycan bolşeviklər tərəfindən işğal ediləndə (28 aprel 1920) Zəngəzur bölgəsinin böyük hissəsi erməni silahlı qüvvələrinin nəzarəti altında idi. Eləcə də, Qarabağın dağlıq hissəsində erməni daşnaklarının hücumları davam edirdi. Azərbaycanda yaradılan Müvəqqəti İnqilab Komitəsi 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan Zəngəzur və Qarabağdan qoşunlarının çıxarılmasını tələb edirdi.

1920-ci il avqustun 10-da Rusiya Kommunist Partiyasının Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin heç bir razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar qəbul etdi. Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olundu. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulmasının elan olunmasından bir gün sonra noyabrın 30-da keçirilən Azərbaycan KP MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə Zəngəzurun Ermənistana verilməsi məsələsi həll olundu. Qərarda Zəngəzur bölgəsini iki yerə - Qərbi və Şərqi Zəngəzur qəzalarına bölmək təklif edilirdi. Nəticədə qədim Azərbaycan torpağının bir parçası olan Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qaldı. 3.637 kv. verstlik hissəsi isə Ermənistana "bağışlandı".

Azərbaycan xalqı 30 ilə yaxın erməni faşistlərinin işğalında olan torpaqlarımız uğrunda Qurtuluş Savaşına, haqq mübarizəsinə qalxaraq tarixi ədaləti bərpa etdi. Bu gün torpaq, yurd, el-oba həsrətlisi olan həmvətənlərimiz öz ata-baba yurdlarına, əcdadlarının uyuduğu tarixi torpaqlarına qayıdır. Erməni vəhşilərinin viranə qoyduğu yurd yerlərimizi yenidən qurmağa, gözəlliklər yaratmağa, talan edilmiş, yandırılmış torpaqlarımızı, Qarabağımızı, Şərqi Zəngəzurumuzu dirçəltməyə qayıdır.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Müasir cəmiyyətdə dinin rolu və yeri. Azərbaycanda islami dəyərlərin bərpası. Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir.

**Suallar:**

**1. Müasir cəmiyyətdə dinin rolu və yeri.**

**2. Azərbaycanda islami dəyərlərin bərpası.**

**3. Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir.**

### Müasir cəmiyyətdə dinin rolu və yeri

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, din dövlətdən, dövlət də dindən ayrıdır. Buna görə də dövlətin sosial, siyasi, iqtisadi və hüquqi fəaliyyətini müəyyən edən qanunlar qəbul edilərkən, dinin bu mövzudakı əmr və qadağalarına görə deyil, sosial ehtiyaclara görə edilir. Dövlət quruluşunun əsası olan dünyəvilik din və vicdan azadlığını dövlət tərəfindən təminat altına alır. Dövlətin vətəndaşı ilə münasibəti dini və ideoloji deyil, ədalət çərçivəsində olmalıdır. Dövlətin əsas vəzifəsi ədaləti, daxili və xarici təhlükəsizliyi təmin etmək, vətəndaşların haqq və azadlıqlarına əngəl olan problemləri aradan qaldırmaqdır. Bu səbəbdən də, dövlət bu gün ölkənin gələcəyi üçün lazım olan tədbirləri görməkdədir. Yəni vətəndaşlarını və cəmiyyəti zərərli, fanatik və radikal dini-siyasi qrup və təşkilatlardan qoruyur.

Azərbaycanda din-dövlət, eyni zamanda, cəmiyyət-dövlət münasibətləri milli-mənəvi dəyərlərlə yanaşı, həm də universal və multikultural dəyərlərə əsaslanan azərbaycançılıq ideologiyası kontekstində tənzimlənir. Bu baxımdan, cəmiyyətə sağlam təfəkkürlü vətəndaş qazandırmaq üçün dərin dini-fəlsəfi dünyagörüşünə, bədii-etik təfəkkürə və yüksək estetik zövqə malik olan insan yetişdirmək lazımdır. Belə ki, bu da dövlətin düşünülmüş, planlı və uzaqgörən siyasətinə əsaslanan proqramın tərtib olunmasına və onun həyata keçirilməsinə bağlıdır. İnanmaq lazımdır ki, əgər dövlət vətəndaşını və ölkənin gələcəyini düşünərək, bütün bunları sistemli şəkildə həyata keçirərsə, gələcəkdə cəmiyyətdə problem və təhlükə yaradan radikal, fanatik fərdlər ortaya çıxmaz.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cəmiyyətdə dinin böyük rolu və yeri olduğunu öz çıxışında belə qeyd etmişdir: "Dinin cəmiyyət həyatında, xüsusən də gənclərin mənəvi-əxlaqi tərbiyəsində yeri və rolu düzgün istiqamətləndirilməli, mütərəqqi islami dəyərlərin tətbiqi və təşviqi müasir tələblər səviyyəsində aparılmalı, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməlidir. Bütün bunlar müasir mərhələdə Azərbaycan Respublikasının daxili və xarici siyasətinin, demokratik dünya birliyi ilə əməkdaşlıq münasibətlərinin prioritet xəttini təşkil edir. Ölkəmiz bu sahədə nüfuzlu beynəlxalq və regional təşkilatlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatında uğurla fəaliyyət göstərir. Son illərdə MDB Dinlərarası Şurasının, MDB Müsəlmanlarının Məşvərət Şurasının, Qafqaz Xalqları Ali Dini Şurasının toplantılarının, xüsusən dünya dini liderlərinin sammitlərinin Bakıda keçirilməsi Azərbaycandakı dini sabitliyi, tolerantlıq mühitini, əqidə və ifadə azadlığını bütün dünyaya bir daha bariz şəkildə nümayiş etdirmişdir. Azərbaycan dövləti dinlərarası dialoqun dinamik inkişafına müsbət təsir göstərən bütün səyləri bundan sonra da dəstəkləyəcəkdir".

### Azərbaycanda islami dəyərlərin bərpası

Respublikamızda dünyəvi dövlət şəraitində dövlət-din münasibətlərinin tənzimlənməsi, dini-mənəvi dəyərlərin pozitiv potensialından səmərəli və məqsədyönlü istifadə olunması ilə bağlı görülən böyük işlərin mahiyyətini düzgün başa düşmək üçün müstəqillik dövrünün ilk illərində ölkənin dini durumuna ani olsa da nəzər salmaq labüddür. Milli müstəqilliyin ilk illərində Azərbaycan cəmiyyəti üçün həyatın bütün sahələrində olduğu kimi din sahəsində də müəyyən pərakəndəlik səciyyəvi idi. 70 illik sovet rejimi dövründə insanların zehnindən dini sıxışdırıb çıxartmaq məqsədilə çox iş görülmüşdü. İfrat dərəcədə ideolojiləşdirilmiş stereotiplər bütövlükdə materialist dünyagörüşünə əsaslanan əxlaqi tərbiyə sistemi yaradılmasına yönəldilmişdi. Bu sistem insanlara öyrədirdi ki, "Allah yoxdur, din mövhumat və xürafatdan başqa bir şey deyildir, axirət inancı yanlış inancdır, ancaq dünya həyatı var və insan öləndən sonra hər şey bitir". Sovet dövründə yaşayıb-böyümüş insan bu vaxta qədər alışmış olduğu ictimai yönümünü itirdi - çaşıb qaldı, nə edəcəyini bilmədi. Bəzilərində bu hal daha kəskin xarakter aldı. Vəziyyətdən sui-istifadə etmək istəyənlər də az olmadı. Ölkədə qeyri-ənənəvi dinləri, deskruktiv sektaları yaymaq məqsədi güdən bir sıra xarici missioner təşkilatların fəaliyyəti geniş vüsət aldı. Erməni təcavüzü nəticəsində ölkə ərazisinin böyük bir hissəsinin işğal edilməsi, bir milyonluq qaçqın və köçkünlər ordusunun yaranması ilə bağlı sosial gərginlik şəraitində bu hal, həqiqətən, cəmiyyətimizin, xalqımızın gələcəyi, onun müasir millətlər toplusuna daxil olması yolunda ciddi əngəllər törədirdi. Din ölkədə müxtəlif siyasi qüvvələrin süni surətdə yaratdığı qarşıdurmaya cəlb edilir, ayrı-ayrı bölgələrdə özünü göstərən separatizm cəhdlərində ortaya atılan şüarlarda dindən siyasi məqsədlərlə istifadə etmək meyli, dini dözümsüzlük, ayrı-seçkilik əhval-ruhiyyəsi özünü büruzə verirdi. 1992-ci ildə tələsik, bölgədə dinin yayıldığı tarixi şəraiti tam nəzarətə almadan hazırlanmış "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi də dini durumda dövlət nəzarətini təmin edib, köklü dəyişiklik yarada bilmədi. Əksinə, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, müxtəlif missioner təşkilatları qanundan və xüsusilə orada olan boşluqlardan istifadə edərək insan haqları və əsas azadlıqlar adı altında hətta milli təhlükəsizlik və ictimai asayiş tələblərinə cavab verməyən dini firqələrin ölkəmizə və millətimizə yad inancların yaymağa başladılar. Bir çox dini icma xaricdəki dini mərkəzlərin və missioner təşkilatlarının ölkədə təbliğçilərinə çevrilmişdi.

Ümummilli lider Heydər Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdanda cəmiyyətin dinə bağlılıq durumu mürəkkəb və ziddiyyətli idi. Yalnız ulu öndər Heydər Əliyev öz dərin biliyi, yüksək bacarığı, mətin iradəsi, böyük idarəçilik təcrübəsi, düzgün və uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərini inzibatçılığa yol vermədən, məqbul beynəlxalq standartlara müvafiq şəkildə öz təbii məcrasına qaytara, dövlətin strateji xəttinə əsasən tənzim edə bilərdi. İlk növbədə din-dövlət münasibətlərində yaranmış uçurum aradan götürülməli, qarşılıqlı inam bərpa olunmalı, dövlətin antidin, ateist siyasəti yeritməməsinə insanları inandırmalı, dinin həqiqətən də milli-mənəvi dəyərlərdə yerini müəyyən etmək tələb olunurdu. Hər şeydən əvvəl vəziyyətdə köklü dəyişiklik yaratmaq üçün problemə münasibət bildirməklə yanaşı, qanuni zəmin hazırlamaq lazım idi. Bu məqsədlə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən dəyişikliklər edildi, bəzi maddələr ləğv, bəzisinə isə əlavələr edildi.

Ulu Öndər məscidlərə gedir, dini münasibətlərlə keçirilən mərasimlərdə iştirak edir, dindarlarla görüşür, dövlətin strateji xəttini özü şəxsən izah etməyə çalışırdı. Ümummilli Lider çıxışlarının birində bildirdi ki, Azərbaycanın strateji yolu demokratik, hüquqi, dünyəvi dövlət quruculuğundan keçir. Əlbəttə, dünyəvi dövlətçilik prinsipi dövlətin dindən ayrılığını nəzərdə tutur. Lakin vətəndaş, bütövlükdə isə xalq və millət dindən ayrı deyildir. 1-2 oktyabr 1998-ci ildə Bakıda keçirilən "Müasirlik və dini-mənəvi dəyərlər" adlı beynəlxalq konfransda ümummilli lider Heydər Əliyev dünyəvi dövlətdə etiqad azadlığı prinsipini daha geniş açıqlayaraq demişdir: "Dövlətimiz insanlara bütün azadlıqları vermiş və vicdan azadlığını, din azadlığını öz siyasətinin əsas hissəsi hesab etmişdir. Azərbaycan Respublikasının Konstitusiyası din və vicdan azadlığını təsbit etmiş, biz isə bir dövlət kimi bunun təmin olunmasının qarantıyıq. Bəli, ona görə də bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik". Bu gün Azərbaycanda dini zəmində münaqişələrin olmaması insanların sərbəst olaraq öz əqidə formasını seçməsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması ümummilli lider Heydər Əliyevin dini sahədə balanslaşdırılmış siyasət yürütməsinin və həmin siyasətin bu gün davam etdirilməsinin nəticəsidir.

Roma papası İohann II Pavel 2003-cü ilin mayında Bakıda olarkən demişdi: "Azərbaycan üç müxtəlif dinin dinc yanaşı yaşadığı nadir bir ölkə və dini dözümlülük baxımından sabit cəmiyyətdir". Bu stabillik gərgin əməyin, ölçülüb-biçilmiş çox incə bir siyasətin və möhkəm iradənin nəticəsidir. Bu milli adət-ənənələrə, mənəvi-dini dəyərlərə ölkə rəhbərliyinin münasibəti fonunda yaranmış əlverişli şəraitin təbii təzahürüdür.

### Azərbaycan Respublikası dini tolerantlıq nümunəsidir

Azərbaycan xalqı olduqca mühüm və bəşəriyyətə nümunə olan mənəvi keyfiyyətlərə malikdir. Bunlardan biri də əsrlərdən bəri formalaşaraq inkişaf edən, xalqımızın humanist dünya görüşünü özündə əks etdirən multikultural və tolerant dəyərlərdir. Təsadüfi deyil ki, tarixin bütün dönəmlərində bu coğrafiyada müxtəlif etnoslar, xalqlar, ayrı-ayrı dinlərə sitayiş edən insanlar əmin-amanlıq, mehriban qonşuluq şəraitində yaşamışlar. Tarixin bütün dövrlərində dünyanın demək olar ki, hər bir tərəfində milli və dini zəminlərdə qarşıdurmalar baş vermiş, insanlığa, bəşəriyyətə qarşı ağır cinayətlər törədilmişdir. Lakin Azərbaycanda yaşayan xalqlar arasında heç vaxt milli-etnik və dini zəmində ədavət baş verməmiş, bu məqsədlə kənardan edilən cəhdlər iflasa uğramışdır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində ölkəmizdə mədəniyyətlər və dinlərarası dialoq keyfiyyətcə yeni mərhələyə yüksəldildi, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə hüquqi zəmin yaradıldı. Ən əsası, bu, dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrildi. Müəllifi Ulu Öndər olan Azərbaycan Konstitusiyasında ölkəmizdə dinindən, irqindən, dilindən asılı olmayaraq hər bir vətəndaşın hüquq və azadlıqları, o cümlədən etiqad azadlığı təsbit olundu.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında xalqımızın multikultural və dini-mənəvi dəyərlərinin qorunması, inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasət yeni mərhələdə onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Dövlət başçısı mütəmadi olaraq ölkəmizdə yaşayan xalqların, dini icmaların nümayəndələri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır, milli və dini bayramlarını təbrik edir. Prezident İlham Əliyevin Azərbaycan multikulturalizminin və tolerantlığının elmi əsaslarla öyrənilməsi, həmçinin dünyada təbliği istiqamətində göstərdiyi konkret hədəflərə çatmaq üçün atılan əməli addımları öz bəhrəsini verməkdədir. 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunması bu sahəyə diqqəti daha da artırır və eyni zamanda, dünyanı alternativi olmayan multikulturalizm və tolerantlıq siyasətindən daha effektiv şəkildə faydalanmağa dəvət edir.

Azərbaycanda yaşayan bütün millətlərin və dinlərin nümayəndələrinin dövlətçiliyimiz naminə daim həmrəylik nümayiş etdirmələri xalqımızın yüksək multikultural və tolerant dəyərlərə malik olmasının bariz nümunəsidir. Ölkəmizin inkişafı, qüdrətlənməsi ilə yanaşı, ərazi bütövlüyümüzün qorunmasında da burada yaşayan bütün xalqların və dinlərin nümayəndələri hər zaman qəhrəmanlıq və vətənpərvərlik nümunələri ortaya qoyublar. 44 günlük Vətən müharibəsində də bunun bir daha şahidi olduq. Torpaqlarımızın işğaldan azad olunması zamanı Azərbaycan Ordusunun apardığı hərbi əməliyyatlarda ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələri də əsl qəhrəmanlıq nümunələri göstərdilər. Onların arasında şəhidlik zirvəsinə ucalanlar oldu. Bir daha təsdiq olundu ki, Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bu torpağı canı qədər sevir və uğrunda ölməyə hazırdır.

Dövlət vətəndaşların dini-fəlsəfi dünyagörüşünün, bədii-etik təfəkkürünün və estetik zövqünün formalaşdırılması üçün düşünülmüş dövlət siyasəti həyata keçirir. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Bu gün multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, həyat tərzidir" - deyərək multikulturalizmi qədim dövrlərdən üzü bu yana xalqımızın həyat tərzi kimi xarakterizə etmişdir. Çünki Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemi, tolerant münasibətlər içərisində birgə yaşayış ənənəsi bütün dövrlərdə müşahidə edilmişdir. Təbii ki, bu tendensiya Azərbaycan xalqının sahib olduğu dəyərlər sisteminin bütün nümunələrində əsas istiqamətlərdən biridir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## Tarix yazan oğullar

# “Mən də tarix yazacam” demişdi...



***Şəmkir rayonunun Mahmudlu kəndində anadan olmuşdu. 1996-cı ildə. Şəhid Yaşar Əsgərov adına orta məktəbdə oxuyanda o da valideynlərindən, müəllimlərindən Ermənistanın torpaqlarımıza hücumlar etdiyini, rayonlarımızın işğal olunduğunu, Meşəlidə, Bağanıs Ayrımda, Ağdabanda, Xocalıda faciələr törətdiyini eşidirdi. Onun da qəlbi gizildəyirdi. Daha tez böyüməyi, hərbi xidmətə getməyi, Ali Baş Komandanın əmri ilə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə iştirak etməyi arzulayırdı.***

Orta məktəbi 2013-cü ildə bitirdi. Hələ ali təhsil almaq fikrində deyildi. Sonralar ondan "Niyə ali təhsil almaq istəmədin?" sualına gülümsünərdi, "Hər şeyin öz vaxtı var", - deyərdi.

Hərbi xidmətə çağırıldı. Ön xətdə xidmət edirdi.

Hərbi and içəndə ataanasına deyibmiş: Buradan döyüşə daha yaxın olacaq.

Hərbi nizamnamələrin tələblərinə ciddi əməl edirdi, zabitlərin əmr və göstərişlərini məsuliyyətlə yerinə yetirirdi İsmət.

Artilleriyaçıydı. Topçuydu. Bilik və bacarıqlarını təlimlərdə daha da təkmilləşdirirdi. Komandirinin dediklərini unutmurdu; komandirindən eşitmişdi: "Təlimdə tər töksən, döyüşdə qan tökməzsən". Döyüşü isə böyük istəklərlə gözləyənlərdən biri də əsgər İsmət Namazov idi...

Ordu sıralarından tərxis edildi. Yoldaşları ilə yenidən görüşmək ümidi ilə sağollaşdı...

2020-ci ilin payızıydı. Ermənilər Azərbaycanın ərazilərinə bütün istiqamətlərdən hücum etmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ölkədə qismən səfərbərlik elan edildi.

Anası xatırlayır ki, həmin gün İsmət işdən elə bil "quş qanadında" gəldi, görüşüb yola düşəndə, "Mən də tarix yazan oğulların sırasında olacam, ay ana. Siz də, oğlum Tunar da, qızım İnci də qürurlanacaqsınız...", - dedi...

İsmət Namazov Vətən müharibəsinə çağırıldı. Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etdi.

Düşmən Füzuli istiqamətində olduqca güclü müdafiə səddi yaratmışdı. Digər işğal olunmuş ərazilərimizdə olduğu kimi, burada da "Ohanyan səddi", eləcə də digər mühəndistehkam qurğuları ordu hissələrimizin hücuma keçməsini çətinləşdirirdi. Komandanlığın əmri ilə artilleriya silahları işə düşdü.

Mərmilər düşmənin atəş nöqtələrini, komanda məntəqələrini, döyüş texnikasını, canlı qüvvəsini dağıdırdı. Düşmənin müqaviməti getdikcə zəifləyirdi. Komandir döyüşçülərə bu haqda danışanda hamısının yumruqları düyünləndi, daha çılğınlıqla atışmağa başladılar...

Strateji yüksəkliklər, yaşayış məntəqələri düşməndən azad edildikcə inanırdılar ki, qələbə ərəfəsindədirlər. Komandirləri belə demişdi: Yaxın vaxtlarda işğalın sonu olacaq, xalq sizi qalib əsgər kimi qarşılayacaq!..

Oktyabrın 26-sı idi. Ağır döyüş gedirdi. Düşmənin koordinatları verilmiş mövqeləri məhv edilməliydi ki, `mühüm strateji ərazi işğaldan azad edilsin, piyada bölmələrimizin hücumuna şərait yaradılsın. Əmr vaxtında və dəqiq yerinə yetirildi. Düşmən mövqelərdən qaçmağa məcbur oldu...

Belə uğurlu əməliyyatlar sonralar da oldu. Komandir əsgər İsmət Namazova yüksək döyüş bacarıqlarına görə təşəkkür etdi...

Gərgin gedən döyüşlərdən birində əsgər İsmət Namazov şəhid oldu.

Şəhid İsmət Namazov Şəmkir rayonunun Mahmudlu kəndində dəfn edilib. Yeniyetmələr də, gənclər də, qazilər də onu ziyarət edəndə ruhən "Qəlbimizdə yaşayırlar Vətən, sənin şəhidlərin!" deyirlər...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə İsmət Namazov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## “Taliban” Kabil aeroportundakı xaosun məsuliyyətini ABŞ-ın üzərinə qoyub



"Taliban" hərəkatı Kabil beynəlxalq aeroportundakı iğtişaşların və xaosun məsuliyyətini ABŞ-ın üzərinə qoyub.

Bu barədə Al Arabiya telekanalının yaydığı məlumatda deyilir. Məlumata görə, talibların rəhbərliyi hesab edir ki, Kabil aeroportundakı xaosun məsuliyyətini Birləşmiş Ştatlar daşıyır.

"Taliban"ın nümayəndəsi bundan əvvəl etiraf etmişdi ki, Kabil aeroportunda və onun ətrafında qayda yaradılması və hökm sürən xaosun aradan qaldırılması sadə məsələ deyil. Hərəkat beynəlxalq qüvvələrdən xarici qoşunların Əfqanıstandan çıxarılması planına dair dəqiq izahat almaq istəyirdi.

Hazırda Kabil beynəlxalq aeroportunun sutkalıq işini NATO dövlətlərinin 800-ə yaxın mülki nümayəndəsi təmin edir, qayda-qanunu isə ABŞ, Böyük Britaniya və Türkiyə hərbçiləri dəstəkləyir. KİV-in məlumatına əsasən, minlərlə insan ölkədən çıxmağa cəhd göstərir. Uçuş-eniş zolağına çıxan kütləni qovmaq üçün hərbçilər gözyaşardıcı qazdan istifadə edir, havaya atəş açırlar. İnsanlar havaya qalxan təyyarələrin şassisindən və füzelyajından yapışırlar. Bu insidentlər nəticəsində azı 12 nəfərin həlak olduğu bildirilir.

## Pakistanda terrorçuların maşın karvanına hücumu iki uşağın həyatına son qoyub



Pakistanın Bəlucistan əyalətinin Qvadar liman şəhərində terrorçuların Çin iş adamlarının maşın karvanına hücumu nəticəsində iki uşaq həlak olub. Terror aktı nəticəsində bir neçə nəfər yaralanıb, onlardan biri Çin vətəndaşıdır.

Pakistan mətbuatı xəbər verir ki, hadisə Pakistan-Çin iqtisadi dəhlizinin tərkib hissəsi olan, Pakistanı Çinin Sincan Uyğur Muxtar rayonu ilə birləşdirən magistral yolun çəkilişi zamanı baş verib. Çinin Pakistandakı Səfirliyi bu terror aktını pisləyib. Səfirlik əmin olduğunu bildirib ki, terrorçular tapılacaq və cəzalarını alacaqlar.

## Ermənistanda əsgər və zabitlər üçün nəzərdə tutulan ərzaq məhsullarının keyfiyyəti çox aşağıdır



Ermənistanda orduya verilən ərzaq məhsullarının hazırlanmasında və saxlanılmasında ciddi qanun pozuntularına yol verilib. Əsgər və zabitlər üçün nəzərdə tutulan ərzaq məhsullarının keyfiyyəti çox aşağıdır.

Bu sözləri Ermənistanın müdafiə naziri Arşak Karapetyan nazirliyin sifarişi ilə ərzaq məhsullarının hazırlanması və saxlanılması üzrə xidmət göstərən təşkilatların nümayəndələri ilə görüşdə deyib.

Ermənistan müdafiə nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, görüşdə ölkənin silahlı qüvvələrinin və hərbi polisinin məsul şəxsləri yoxlamalar zamanı qeydə alınan pozuntular barədə məlumat verib, bəzi hallarda hərbi hissələrdə göstərilən yeməklərin və xidmətlərin keyfiyyətinin xüsusilə aşağı olduğunu qeyd ediblər. Bildirilib ki, təşkilatlarla bağlanmış müqavilələr tələblərə cavab vermir.

Müdafiə naziri orduya verilən ərzaq məhsullarının hazırlanmasında və saxlanılmasında pozuntulara yol verən şirkətləri tənqid edib. O, qeydə alınan bütün çatışmazlıqların qısa müddətdə tamamilə aradan qaldırılması barədə tapşırıq verib.

A.Karapetyan hərbi polis nümayəndələrinə yeməkxanalarda və ərzaq anbarlarında gündəlik nəzarətin qurulmasını, habelə pozuntulara yol vermiş şirkətlərə qarşı bütün qanuni vasitələrdən istifadə olunmasını əmr edib.

**AZƏRTAC-ın materialları əsasında**

# NATO-nun Baş katibi Azərbaycana təşəkkür edib

***Əfqanıstandakı hava limanının təhlükəsizliyinə göstərdiyi dəstəyə görə Azərbaycana minnətdarıq.***

AZƏRTAC "TRT Haber"ə istinadla bildirir ki, bu sözləri NATO-nun Baş katibi Yens Stoltenberq jurnalistlərə açıqlamasında deyib.

Baş katib qeyd edib ki, təxliyələr üçün gün ərzində fasiləsiz olaraq işlər görülür. "Türkiyə bu mövzuda mühüm rol oynayır. Xüsusilə Türkiyə, ABŞ və İngiltərəyə Kabildəki hava limanının təhlükəsizliyində vacib rol oynadıqlarına görə təşəkkür edirəm. Azərbaycana da hava limanının təhlükəsizliyində göstərdiyi dəstək üçün minnətdarıq".

# Təcrübə döyüşdə qələbəni sürətləndirən amildir



(Əvvəli 1-ci səhifədə)

"Həyəcan" siqnalı ilə bölmədə aktivlik müşahidə olundu. Hər kəs çevikliklə formasını geyindikdən sonra silah otağından lazımı təchizatını alaraq, əvvəlcədən nəzərdə tutulmuş ərazidə komandirlərin növbəti tapşırığını gözlədi. Komandirlərin tapşırığı ilə aktiv şəkildə məşınlara minən şəxsi heyət təlim yerinə doğru hərəkətə başladı. Həmsöhbətimiz baş leytenant Yusif Abdullayev yerinə yetiriləcək fəaliyyətin mövzusu ilə bizləri tanış etdi. "Tədris planına uyğun olaraq keçirilən sinif və çöl dərslərində bölmənin şəxsi heyəti motoatıcı ixtisasına aid biliklərini artırır, silahdan istifadə qaydalarını öyrənir, həmçinin silahın taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəyir. Bir sözlə, bölməmizin şəxsi heyəti ona təhkim olunan cihazla yaxından tanış olur". Taktiki hazırlıq məşğələsinin bugünkü mövzusunu diqqətimizə çatdıran zabit əlavə etdi ki, hərbi qulluqçular dərs zamanı qarşıya qoyulan tapşırıqları qəbul olunmuş normativlər əsasında yerinə yetirməyi məşq edəcəklər. "Baş tutan təlimlərdə şəxsi heyət öz nəzəri biliklərindən əlavə, praktiki vərdişlərini də artırır, qarşıya qoyulan tapşırığı uğurla icra edir. İkinci Qarabağ müharibəsi zamanı da bölməmiz aktiv döyüşlərdə iştirak edərək qarşıya qoyulan tapşırıqları uğurla icra etdi. Döyüşdə qələbəni sürətləndirən amil, təcrübədir. Təcrübəni dərslərdə, təlimlərdə qazanaraq özünü daha da təkmilləşdirirsən. Savaşın xeyrimizə başa çatması heç də hərbi hazırlığımızın başa çatması demək deyil. Bundan sonra da tabeliyimizdəki şəxsi heyətin bir döyüşçü kimi formalaşmasında əlimizdən gələni əsirgəməyəcəyik."

Şəxsi heyətin fəaliyyətini izlədik. Nəzəriyyədə öyrənilənlərin təcrübədə uğurla tətbiqi bölmədəki döyüş hazırlığının yüksək səviyyədə təşkilindən xəbər verirdi. Əmin olduq ki, fəaliyyətini izlədiyimiz motoatıcı bölmənin şəxsi heyəti hərbi vərdiş və bilikləri kifayət qədər mənimsəyiblər. Bir sözlə, bölmənin hərbi qulluqçuları mənimsədiyi mövzunu təcrübədə uğurla sınaqdan çıxartdı. Bu da təsdiq edir ki, şəxsi heyət dərslərdə və təlimlərdə fəal iştirak edərək qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlməyi bacarır.

**Baş leytenant Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# “Mənim atam qəhrəmandır” layihəsi çərçivəsində növbəti tədbir keçirilib

Azərbaycan Respublikası Müdafiə və Daxili İşlər nazirliklərinin dəstəyi və "Fire Land Production"ın təşkilatçılığı ilə Vətən müharibəsində şəhid olmuş qəhrəmanların övladları üçün "Mənim atam qəhrəmandır" layihəsinin növbəti tədbiri keçirildi. Bu dəfə tədbir Dağüstü parkda təşkil olundu. Tədbirin məqsədi torpaqlarımız uğrunda canından keçən qəhrəmanlarımızı bir daha anmaq, onların övladlarına daim xalqımızın diqqət mərkəzində olduqlarını hiss etdirmək, şəhid balalarının səmərəli istirahətini təşkil etməkdir.

Olimpiya çempionlarının da dəvət olunduğu tədbir Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzindən başladı. Ekskursiya avtobuslarında şəhəri gəzən şəhidlərin övladları "Zəfər marşı"nı ifa edərək tədbirə qatıldılar. Onlar öz atalarının fotoları həkk edilən geyimlərdə, digər uşaqlar üzərində subay şəhidlərimizin rəsmləri, şəhid anaları isə övladlarının şəkli olan və "Mənim qəhrəmanım" yazılmış geyimlərdə tədbirə qatıldılar.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirin rəsmi hissəsində aparıcı Nərgiz Cəlilova qəhrəman övladlarını, şəhid analarını, şəhid xanımlarını və tədbirə qatılan digər qonaqları salamladıqdan sonra şəhidlərimizin xatirələri bir dəqiqəlik sükutla yad edildi.

Sonra Müdafiə Nazirliyinin zabiti Həbib Məmmədov çıxış edərək bu cür tədbirlərin mütəmadi keçirilməsinin təqdirəlayiq hal olduğunu bildirdi. Vətən uğrunda canından keçmiş oğullarımızın övladlarının hər birimiz üçün bir əmanət olduğunu deyən zabit onların işıqlı gələcəyi naminə əlimizdən gələn hər şeyi etməyin vacibliyini vurğuladı.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəis müavini polis polkovnik-leytenantı Hafiz Təmirov da şəhid və qazilərimizin qəhrəmanlıqlarının xalqımız tərəfindən heç vaxt unudulmayacağını, bu cür oğulların var olduqca bu Vətənin daim yaşayacağını dedi.

Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov da çıxış edərək kimliyindən asılı olmayaraq hər kəsin şəhid ailələrinə diqqətlə yanaşmasının vacibliyindən danışdı.

"Fire Land Production"ın rəhbəri Cəlal Qurbanov da öz növbəsində tədbirin əsas məqsədinin qanı ilə tarix yazan hər bir şəhidimizin uşaqdan böyüyə hər kəsin yaddaşına həkk olunması, daim qürurla xatırlanması olduğunu dedi. Dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin böyük həssaslıq və sevgiylə yanaşdığı şəhid ailələrinin hamımızın əzizi, doğması olduğunu deyən C.Qurbanov vurğuladı ki, xalqımız da hər zaman qəhrəmanlarımızın ailələrinin yanındadır. O, bu layihənin hüdudlarının təkcə Bakı şəhərini əhatə etməyəcəyini, Azərbaycanın digər bölgələrində də bu cür tədbirlərin keçiriləcəyini dedi.

Şəhid analarına müraciətlə çıxış edən ilahiyyatçı Hacı Zaur Məmmədov onlara belə qəhrəman övladlar yetişdirdiklərinə görə minnətdarlığını bildirdi, şəhidlərimizə Allahdan rəhmət dilədi.

Tədbirin xüsusi qonağı Azərbaycanın Əməkdar artisti Sevda Ələkbərzadə də şəhid övladları ilə birlikdə oldu, qəhrəmanlarımızın anaları, ailə üzvləri ilə hisslərini bölüşdü. O, "Sən yadıma düşəndə" mahnısını ifa etməklə iştirakçılara həssas anlar yaşatdı.

Sonra "Əbədi məşəl" abidə-kompleksində qəhrəmanlarımızın övladları "Zəfər" marşını oxuyaraq və səmaya ağ göyərçinlər uçuraraq dünyaya "Müharibə olmasın! Uşaqlar atasız qalmasın!" mesajını verdilər.

Sonda qəhrəman övladlarına "Xarıbülbül" döş nişanı hədiyyə olundu.

# Səmaların fatehləri

Bir zamanlar uçmaq insanların gerçəkləşməyəcək xəyallarından biri olaraq qalmaqdaydı. Səmada olan dəyişiklikləri - gecəylə gündüzün növbələşməsini, ildırımın çaxmasını və digər hadisələri insanlar daha yaxından izləmək istəyirdilər. "Uçan xalça", "Simurq quşu" səmalara can atan insanların təfəkkürünün məhsulu idi. Nağıllarda, əfsanələrdə, hətta qədim abidələrimizin üzərində belə motivlərlə rastlaşa bilərik.

Eramızdan əvvəl XII-X əsrlərə aid Manna tayfasına məxsus olan qızıl camın üzərində qoşa qanadlı iki köhlən at təsvir olunub.

Əndəlus sakini Abbas ibn Firnas 852-ci ildə uçmaq arzusunu birinci həyata keçirib. O, gövdəsinə bərkitdiyi "qanadların" köməyi ilə Kardovo şəhərindəki Böyük Məscidin uca minarəsindən tullanaraq, bir neçə dəqiqə ərzində havada uçub. 1630-cu ildə türk Əhməd Çələbi ixtira etdiyi "dəri qanadlı planyoru" ilə Bosfor boğazının üzərindən uçub və uğurlu şəkildə yerə enməyi bacarıb.

Tarixə düşmüş ilk azərbaycanlı aviatorların fəaliyyəti 1910-1920-ci illərə təsadüf edir. Əli bəy Verdiyev I Dünya müharibəsi dövründə Fransanın aviapilotaj məktəbində təhsil alaraq, məzunu olduğu məktəbin tələbələrinə uçuş dərsləri keçib.

Azərbaycanın tarixinə ilk hərbi təyyarəçi kimi Fərrux ağa Qayıbov düşüb. Rusiya imperiyasının "qanun"larına görə müsəlmanlara zabit heyətinə qatılmağa icazə verilmirdi. Ancaq buna baxmayaraq "artilleriyanın allahı" kimi tanınan general Əliağa Şıxlinski ona Konstantinov artilleriya məktəbinə qəbul olmağa kömək edir. 1913-cü ildə hərbi məktəbi bitirərək xidmət üçün 39-cu artilleriya briqadasına göndərilir və "İlya Muromets - 16" ekipajına qəbul edilir. O vaxt rus qəzetləri "İlya Muromets - 16" təyyarəsinin dörd alman qırıcısına qarşı təkbaşına döyüşdüyünü yazırdı. Ancaq bu qeyri-bərabər döyüşdə "İlya" ekipajı da qəhrəmancasına həlak olur.

Azərbaycan Xalq Cümhuriyyəti elan olunduğu vaxtdan hərbi hava qüvvələrinin yaradılmasını zəruri hesab edərək bu istiqamətdə lazımi tədbirlər görməyə başladı. General Səməd bəy Mehmandarovun başçılıq etdiyi Hərbi Nazirlik aviasiya sahəsində milli kadrların hazırlanmasını öncül vəzifələrdən biri hesab edirdi. 1919-cu ildə Azərbaycanla Gürcüstan arasında hərbi əməkdaşlıq müqaviləsi imzalandı. Bu sənəd AXC-nın aviasiya siyasətinə də təkan vermiş oldu. 1919-cu ildə Azərbaycanın aviasiya tarixində ilk dəfə olaraq uzaq məsafəyə uçuş həyata keçirildi.

Qadınlar arasında ilk olmağı bacaranlardan biri də Leyla Məmmədbəyova idi. O, Azərbaycanın ilk qadın təyyarəçisi idi. Leyla Böyük Vətən Müharibəsində iştirak etmiş, döyüş tapşırıqlarını nümunəvi yerinə yetirdiyinə görə 1944-cü ildə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. Müharibədən sonrakı həyatını Azərbaycan mülki aviasiyasına həsr etmişdir.

Leyla Məmmədbəyovadan sonra Züleyxa Seyidməmmədova da ilk azərbaycanlı qadın hərbi təyyarəçi kimi adını tarixə yazdırmışdır.

Bütün bunlar indiki gənc pilotlarımıza örnək nümunələrdir. Təbriz Musazadə, Abbas Qasımov, Urfan Vəlizadə və bir çoxları XXI əsrin qəhrəman pilotlarındandır. Bütün bu nümunələrdən sonra artıq insanların səmaları kəşf edib, bu işin incəliklərinə bələd olduğunu desək yanılmarıq. Zirvələrdə qartal süzər. Səmalar sizə, siz də Allaha əmanət, səmaların fatehləri.

**Hüsniyyə İDRİSOVA**

# İdman

## Azərbaycan karateçisi Əminağa Quliyev ikiqat Avropa çempionu olub



Finlandiyanın Tampere şəhərində keçirilən yeniyetmə və gənclər arasında karate üzrə Avropa çempionatı başa çatıb.

Çempionatın sonuncu günündə - avqustun 22-də 18-21 yaşadək gənclərin kumite yarışında Əminağa Quliyev (60 kq) bütün rəqiblərinə qalib gələrək ikiqat Avropa çempionu adını qazanıb.

Hüseyn Məmmədli (67 kq) və Mədinə Sadiqova (55 kq) isə bürünc medala sahib olublar.

Qitə çempionatında kumite üzrə 14-15 yaşlı yeniyetmələrin mübarizəsində Nihad Kərimzadə (+70 kiloqram) və Rəşid Süleymanov (63 kiloqram) qızıl, Rumil Cəfərli (76 kiloqram) gümüş medal qazanıblar. Komandamızın digər üzvü Aysu Əliyeva (47 kiloqram) isə bürünc medala sahib olub.

Beləliklə, Avropa çempionatına 24 karateçi ilə qatılan komandamız 3 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıb.

Çempionatda 45 ölkədən 1008 idmançı iştirak edib.

## Gənc güləşçilərimiz dünya çempionatını 1 qızıl, 4 gümüş və 6 bürünc medalla başa vurublar

Azərbaycanın pəhləvanları Rusiyanın Ufa şəhərində keçirilən gənc güləşçilər arasında dünya çempionatını 1 qızıl, 4 gümüş və 6 bürünc medalla başa vurublar.

Yunan-Roma güləşçilərimiz çempionatda 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıblar. Qızıl medalı ölkəmizin aktivinə Həsrət Cəfərov (67 kq) yazdırıb. Sərxan Məmmədov (130 kq) gümüş, Elmir Əliyev (55 kq) və Nihat Məmmədli (60) isə bürünc medallara sahib olublar. Çempionatın yekununda 101 xal toplayan yunan-Roma güləşi üzrə seçməmiz komanda hesabında Rusiya və İrandan sonra üçüncü pillədə qərarlaşıb.

Sərbəst güləşçilərimiz isə ölkəmizin aktivinə 3 gümüş və 2 bürünc medal yazdırıblar. Zirəddin Bayramov (65 kq), Cəbrayıl Hacıyev (70 kq) və Əşrəf Aşırov (79 kq) gümüş, Turan Bayramov (74 kq) ilə Saqadulla Ağayev (86 kq) isə bürünc medal qazanıblar. Yığmamız yekunda 122 xal toplayaraq, komanda hesabında İran, Rusiya və ABŞ millilərindən sonra dördüncü yeri tutub.

Qeyd edək ki, sərbəst güləş üzrə yığmamız medalların sayına görə son beş ilin ən yaxşı nəticəsinə imza atıb. Komanda sonuncu dəfə 2016-cı ildə Fransanın Makon şəhərində keçirilən gənclərin dünya çempionatında beş medal qazanıb.

Qadın güləşçilərimizdən isə Jalə Əliyeva (59 ) və Birgül Soltanova (62 kq) çempionatı bürünc medalla başa vurublar. Komanda hesabında 44 xal qazanan qadın güləşçilərimiz 11-ci olublar.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş İsmayılov Samir Ələsgər oğluna məxsus AD № 0048499 nömrəli, kiçik çavuş Şuruzadə Vüsal Babil oğluna məxsus AD № 0037268 nömrəli, kiçik çavuş Mirzəyev Orxan Əvəz oğluna məxsus AD № 0036499 nömrəli, əsgər Səmədov Akif Arzu oğluna məxsus AD № 0043168 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baş redaktor vəzifəsini icra edən kapitan Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
baş leytenant Mahmud MÖHBALIYEV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 488
Nüsxə 4009